# Fidan

ABDULLA ŞAİQ, 1914

*Kötüklərin arasında ulu, sağlam bir kötük,*
*Ağır, kəskin baltalarla qol-qanadı qırılmış,*
*Tufanlarla çarpışaraq qalib gəlmiş, yorulmuş,*
*Uca, sağlam və kölgəli dalları qalmış tək-tük.*

*O dalların damarında, suyundakı əsalət,*
*Şanlı keçmiş tarixini anladıyor; hər yarpaq*
*Bayraq kibi kölgəsində bəsləmişdir bir oymaq,*
*Şimdi artıq qocalmış, qalmamış əski qüvvət.*

*Qoca kötük keçmişilə əsla məğrur deyildir,*
*Rişəsindən sormuş olan bir çox sağlam pöhrənə*
*Məğrur baxışlarla baxar, fəxr edər artıq, yenə*
*Gələcəyə şanlı ümid, şanlı tarix doğurur.*

*Bu pöhrənlər həpsi sağlam bir kötükdən cücərmiş,*
*Bir damardan ayrılmış, həp bir torpağın fidanı,*
*Bir döldən, bir yataqdandır, həpsinin birdir qanı,*
*Bir çeşmədən su içmişlər, bir bağban becərmiş.*

*Uca, sağlam və kölgəli ağac olur bir zaman,*
*Kölgəsində bir çox insan ömür sürür asudə,*
*Fırtınadan, tufanlardan sən bunları əsirgə,*
*Ey mehriban ulu Tanrı, ey sevimli Yaradan.*

**Dal** – budaq
**Pöhrən** – pöhrə